# SƏNƏTİN DƏYƏRİ - SƏNƏTKARIN SEVİNCİ,

## yaxud görkəmli mədəniyyət xadimlərinə təbrik-xülasə

Sənətin dəyəri həyatın daha yaşarı olduğunu cəmiyyətin mənəvi mühitinə təsir edəcək gücdə təqdir etməyindədir. Sənətin ən uca amalı insana və insanlığa sevgi ilə bağlıdır. Hər bir sənətkarın ədəbi mühitdəki yeri yüksək insani dəyərləri qorumağa çağırış gücü ilə müəyyən olunur.

Prezidentin sərəncamı ilə fəxri adla mükafatlandırılmış sənətkarların hər birinin sevinci onları tanıyan, ruhunda, varlığında özünə doğmalaşdıran insanların sevincidir. Hər kəsin özünə doğma bildiyi şairi var, yazıçısı var, mədəniyyət, incəsənət xadimi var. Azərbaycan mənəvi mühiti Vahid Əzizi, Ramiz Rövşəni, Musa Yaqubu Xalq şairi kimi, Kamal Abdullanı, Natiq Rəsulzadəni, Afaq Məsudu Xalq yazıçısı kimi yüksək hörmətdə və nüfuzda çoxdan görürdü. Eləcə də Vaqif Bayatlı Odər, Firuz Mustafa və Elçin Hüseynbəyli hər biri öz mənəvi təmayülünə görə çoxdan özlərini təsdiq etmiş sənətkarlardır. Onların «Əməkdar İncəsənət Xadimi» fəxri adına layiq görülməsi cəmiyyətin verdiyi dəyərə dövlət səviyyəsində müsbət münasibətin təsdiqidir. Asim Yadigar, Vaqif Əlixanlı jurnalistikada, publisistikada, poeziyada və essedə özlərinə xas yolları ilə tanınırlar. Onlar ədəbi mühitin yaddaşında sənətkar obrazları ilə çoxdan bütövləşiblər. Aşıq sənətimizin, saz sənətimizin ənənələrinin yaşadılmasında Abbas Musaxanoğlunun əvəzsiz xidmətləri olduğu hər kəsə məlumdur. Bu sənətkarların «Əməkdar Mədəniyyət İşçisi» fəxri adına layiq görülməsi təsdiq edir ki, çəkilən zəhmətin qızılgülə çevrilməsi haqqında deyilənlər həqiqətə çox uyğundur. Doğrusu, təltif olunanlar arasında Rauf Davud oğlu Məmmədovun da adı var. Şəxsən tanımasam da, haqqında internet mənbələrindən də məlumat ala bilməsəm də, inanıram ki, onun da mədəniyyətimizin inkişafı naminə xidmətləri az olmayıb.

*(Davamı 16-cı səhifədə)*

Kredo 2019.- 30 may.- S.1;16.

# SƏNƏTİN DƏYƏRİ - SƏNƏTKARIN SEVİNCİ,
## yaxud görkəmli mədəniyyət xadimlərinə təbrik-xülasə

*(Əvvəli 1-ci səhifədə)*

Əziz dostlarımı və mədəniyyətimizin - ilk növbədə ədəbiyyatımızın görkəmli nümayəndələrini yüksək fəxri adlara görə ürəkdən təbrik edirəm və sevincimi «Kredo»nun bütün oxucuları ilə bölüşürəm. Əlbəttə, çox istərdim ki, bu fəxri mükafatçılar sırasında Çingiz Əlioğlunun, Məmməd İsmayılın, Hüseynbala Mirələmovun, Seyran Səxavətin, Aqil Abbasın, Ənvər Əhmədin (təəssüf ki, İlyas Tapdıq aramızda yoxdur) və bir çox başqalarının da adlarını görüm. Zamanı gəldikcə bu istəyimizin də başa varacağına inanıram. Mənim bu istəyim bir çox şəkkaklardan fərqli olaraq, həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hümanizminə inamımla bağlıdır.

Sənətin dəyəri varsa, sənətkarın da sevinci var. Bu həqiqətə insanların inanmasını istərdim. Elə sənətin də borcu insanların inamını qorumaqdır.

***Əli Rza XƏLƏFLİ***
***29.05.2019***